Siqmund Froyd

# SEKSUALLIĞIN PSİXOLOGİYASI

Tərcüməçi:
Araz Gündüz

qanun nəşriyyatı

**Зигмунд Фрейд**

# ПСИХОЛОГИЯ СЕКСУАЛЬНОСТИ

Müəllifin seksual həyatla bağlı fikirləri ilə inqilab etməsi hamıya məlumdur. Bu kitabda isə o, seksual hadisələri bioloji araşdırma müstəvisindən ayıraraq psixoloji anlayışlar kontekstində araşdırıb. Elmdə ilk dəfə uşaq seksuallığını, seksual sapmaları, homoseksuallığı hərtərəfli öyrənməyə çalışıb. Böyük alim bütün bu mövzuları özünə qədər olan tədqiqatçıların uğur, təcrübə və metodlarına əsaslanaraq şərh edir. Gəldiyi nəticələri anlaşıqlı dildə oxucularına çatdırır. "Seksuallığın psixologiyası" oxucunu cinsəllik anlayışına sosial stereotiplərdən kənar, elmi-psixoloji prizmadan yanaşmağa dəvət edir.

Kitab təkcə bu sahədə çalışan mütəxəssislər üçün nəzərdə tutulmayıb, mövzu ilə maraqlanan bütün diqqətli oxucular ondan faydalana bilər.

# Mündəricat


Müəllifin 3-cü nəşrə ön sözü....................9

Müəllifin 4-cü nəşrə ön sözü....................12

**I. Seksual sapmalar**....................15

1. Seksual obyektə münasibətdə geri çəkilmə....................16

A. İnversiya....................16

İnversiyaya baxış....................18

Degenerasiya....................19

Anadangəlməlik....................20

İnversiyanın izahı....................22

Biseksuallıqla (ikicinsliklə) ilkin tanışlıq....................22

İnvertləşmiş fərdlərin cinsi obyekti....................25

İnvertləşmiş fərdlərin seksual məqsədi....................27

Nəticələr....................27

B. Heyvanların və yetkinlik yaşına çatmayanların cinsi münasibətlərdə seksual obyekt olması halları....................28

2. Seksual məqsədə münasibətdə geriyə çəkilmə....................30

A) Anatomik sərhədləri aşmaq....................31

Ağızın və dodaqların selikli qişasından seksual istifadə halları....................32

Anusun (arxa ifrazat dəliyinin) seksual tətbiqi....................33

Bədənin digər hissələrinin əhəmiyyəti....................34

Seksual obyektin uyğun gəlməyən şəkildə dəyişdirilməsi – fetişizm....................34

B) Öncədən mövcud olan seksual məqsədlərin təsbiti....................37

Yeni niyyətlərin yaranması....................37

Əlləşdirmə və göz yetirmə....................37

Sadizm və mazoxizm....................39

3. Sapmalar haqqında ümumi mülahizələr....................42

Variasiyalar və xəstəlik....................42

Psixikanın sapmalarda iştirakı....................44

İki nəticə.....44
4. Nevrotiklərin seksual istəkləri.....45
Psixoanaliz.....45
Psixoanalizin nəticələri.....47
Nevroz və sapma.....48
Qismən ehtiraslanma və erogen sahələr.....50
Psixonevrozlarda seksual sapmanın üstün görünməsinin izahı.....52
Seksuallığın infantilliyinə istinad olunması.....54

**II. İnfantil seksuallıq**.....57
İnfantilliyə yetərincə diqqət yetirilməməsi.....57
İnfantil amneziya (yaddaş itirmə).....58
Uşaqlıq çağının latent (mürgüləyən) seksuallıq dövrü
və onun pozulması.....60
Cinsi inkişafın gecikməsi.....61
Əks təsir mexanizmi və sublimasiya.....62
Latent dövründəki kənaraçıxma halları.....63
İnfantil seksuallığın ifadə edilməsi.....64
Əmmək (lutschen).....64
Autoerotizm.....65
İnfantil seksuallığın seksual məqsədi.....68
Erogen sahələrin əlamətləri.....68
İnfantil seksual məqsəd.....69
Masturbasiya səciyyəli seksual təzahürlər.....70
Arxa dəliklə bağlı sahənin təzahürü.....71
Genital (cinsəl) sahələrin təzahürü.....73
Uşaq masturbasiyasının ikinci mərhələsi.....74
Körpəlik dövrü masturbasiyasının qayıdışı.....75
Çoxformalı sapma səciyyəli meyillər.....76
Qismən ehtiraslanma.....77
İnfantil seksual araşdırmalar.....80
Dərketmənin cazibəsi.....80

Sfinks tapmacası ....................................................................................81
Axtalanmaq kompleksi və penisə həsəd aparmaq......................................82
Doğuş nəzəriyyəsi ..................................................................................83
Seksual münasibətin sadistcəsinə anlaşılması ...........................................83
Uşaq seksual araşdırmalarının tipik uğursuzluğu .......................................84
Seksual təşəkkülün inkişaf mərhələləri .......................................................85
Pregenital quruluşlar ..............................................................................85
Ambivalentlik..........................................................................................87
Obyektin iki müddət ərzində seçilməsi .......................................................88
İnfantil seksuallığın mənbələri ..................................................................89
Mexaniki həyəcanlanma ..........................................................................90
Əzələ sisteminin işi...................................................................................91
Emosional proseslər.................................................................................92
İntellektual fəaliyyət..................................................................................93
A) Müxtəlif seksual quruluşlar ...................................................................95
B) Qarşılıqlı təsir yolları..............................................................................95
**III. Cinsi yetkinləşmə dövründəki ciddi dəyişikliklər**.......................97
Cinsi sahələrin üstünlüyü və ilkin həzz (Vorlust)......................................98
Cinsi həyəcan..........................................................................................99
İlkin həzz mexanizmi..............................................................................101
İlkin həzzin təhlükələri............................................................................102
Seksual həyəcanlanmanın problemləri .....................................................104
Seksual məhsul ayrılmasının rolu.............................................................104
Daxili cinsiyyət hissələrinin qiymətləndirilməsi.........................................106
Kimyəvi nəzəriyyə..................................................................................107
Libido nəzəriyyəsi..................................................................................108
Kişinin qadından fərqi.............................................................................111
Kişilərdə və qadınlarda cinsi idarəetmə sahələri .......................................112
Obyektin tapılması.................................................................................114
Körpəlik dövrünün seksual obyekti .........................................................115
İnfantil qorxu .......................................................................................117

İnsestin məhdudlaşdırılması ....................................................................118
İnfantil obyekt seçiminin təsiri ..............................................................121
İnversiyanın xəbərdarlığı ..........................................................................122
Xülasə ........................................................................................................124
İnkişafa mane olan məqamlar ...................................................................130
Quruluş və irsiyyət ....................................................................................130
Sonrakı təkrar əmələgəlmə .......................................................................132
Sıxışdırılma ................................................................................................133
Sublimasiya ................................................................................................134
Təsadüfən yaşanan hallar ..........................................................................135
Vaxtından öncəki yetkinləşmə ..................................................................136
Müvəqqəti məqamlar ................................................................................137
Qətiyyət .....................................................................................................138
Sabitləşmə .................................................................................................139
Uşaq cinsiyyət orqanının təşəkkülü
(seksuallıq nəzəriyyəsinə əlavələr) ..........................................................140
Qeydlər ......................................................................................................146
Narsisizm haqqında ..................................................................................170
Kişilərin xüsusi tipli "obyekt seçimi" haqqında ........................................209
Seksual həyatda baş verən alçaldılmalar haqqında ...................................222
Bakirəlik tabusu ........................................................................................238
Qeydlər ......................................................................................................261
Qaynaqlar ..................................................................................................264

## Müəllifin 3-cü nəşrə ön sözü

On il ərzində bu kitabın necə qarşılandığını və hansı təəssürat yaratdığını müşahidə edərək, mən kitabın üçüncü nəşri üçün bir sıra qeydlərimi vurğulamaq istəyirəm: bu qeydlər kitabın yanlış anlaşılması və ona münasibətdə icrası mümkün olmayan iddialarla əlaqədardır. Hər şeydən öncə bildirmək istəyirəm ki, kitabda ifadə edilən müddəalar elmi sübutlara arxalanan psixoanalitik araşdırmaların köməyi ilə dərinləşdirilmiş gündəlik həkimlik təcrübəsinə əsaslanır. "Seksuallıq nəzəriyyəsi ilə bağlı üç məqalə" zəruri şəkildə, psixoanalizdən çıxan nəticələrdən və onun təsdiq etdiyi müddəalardan başqa bir şey deyildir. Buna görə də onları necəsə, bütöv "seksual nəzəriyyəyə" qədər genişləndirmək imkanı istisna olunur və tamamilə aydındır ki, bu müddəalar ümumiyyətlə seksual həyatın bir sıra mühüm problemlərinə toxunmur. Bu səbəbdən burada buraxılmış başlıqların müəllifə məlum olmadığını, yaxud onun bu mövzulara ikinci dərəcəli qiymət verdiyini düşünməyə dəyməz.

Psixoanalitikanın təsiri altında yazılmış bu əsərin psixoanalitik təcrübədən asılılığı yalnız materialların seçimində deyil, həm də onların yerləşmə ardıcıllığında özünü göstərir. Təsadüflərdən asılı olan məqamlara daha böyük əhəmiyyət verilir, göz önündə olan meyillər arxa plana keçirilir və ontogenetik inkişafa (orqa-

nizmin fərdi cismani inkişafı ilə əlaqədar cəhətlərə) filogenetik inkişafdan (orqanizmin tarixi inkişafından) daha öncə diqqət yetirilir. Analizdə təsadüfi təcrübələr başlıca rol oynayır, bu, analizlərin aparıcı xəttini təşkil edir; öncədən mövcud olan inkişaf meyilləri isə sanki bu təsadüfi təcrübələrin arxasından üzə çıxır və onların əhəmiyyəti psixoanalitika sahəsindəki çalışmaların sərhədlərindən çox-çox uzaqlara gedib çıxır.

Ontogenezis və filogenezis arasındakı münasibətlərə də belə bir asılılıq hakimdir. Ontogenezisə filogenezisin təkrarlanması kimi baxmaq olar, çünki filogenezis yeni təcrübələrin sayəsində dəyişilmir. Beləliklə, öncədən mövcud olan filogenetik meyillər ontogenetik proseslərin arxasından üzə çıxaraq görünür. Ancaq, mahiyyətcə, öncədən mövcud olan bu meyillər də özlüyündə növün daha öncə keçdiyi təcrübələrin qalıqlarıdır, bunlar isə öz növbəsində ayrı-ayrı mövcudluqların daha öncə qarşılaşdığı təsadüfi məqamların ümumi yekunu ilə əlaqəlidir.

Psixoanalitik araşdırmadan tam asılı olması ilə yanaşı, bunu da qeyd etməyi lazım bilirəm ki, mənim bu işimin xarakterik cəhəti, məqsədyönlü şəkildə, bioloji araşdırmalardan asılı olmamasıdır. Mən, insanın seksual funksiyasını psixoanalizin texnikası ilə öyrənməyə imkan verən bu araşdırmalarımda ümumi seksual biologiya və ya ayrı-ayrı heyvan növlərinin seksual biologiyası ilə bağlı elmi fərziyyələr yürütməkdən bütünlüklə qaçmağa çalışmışam.

Qarşımda dayanan başlıca məqsəd, psixoloji araşdırmalar vasitəsilə, biologiyanın insanın seksual həyatı ilə bağlı sahəsində nə əldə etməyin mümkünlüyünü öyrənmək idi; bu araşdırmala-